2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar vətəndaşlar Umaratov Qüdrət Hüseynqulu oğlunun və digərlərinin 26 dekabr 2009-cu il tarixli 131 saylı müraciətinə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının

Q Ə R A R I

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar Quba rayonu Birinci Nüqədi bələdiyyəsinin üzvlüyünə namizədlər Umaratov Qüdrət Hüseynqulu oğlu, Məhərrəmov Rafiq Şahbala oğlu, İsayev Mirzə Hacıqulu oğlu, Kərimov Saib Səməd oğlu, Orucov Mais Qədir oğlu, Məmmədov Ehtiram Novruz oğlu, Abdulov Cəlil Mehdibala oğlu 2009-cu il dekabrın 26-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına teleqramla müraciət edərək, Birinci Nüqədi kənd icra nümayəndəsinin və Birinci Nüqədi bələdiyyəsinin sədrinin seçkilərə qanunsuz müdaxilə etdiklərini, həmin hallarla bağlı müvafiq dairə seçki komissiyasının qanunsuz hərəkətsizlik etdiyini bildirmiş və qanuna müvafiq tədbirlərin görülməsini xahiş etmişdilər.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimata uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırılaraq bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Mərkəzi Seçki Komissiyası, müraciətinin tam, hərtərəfli, obyektiv və qərəzsiz araşdırılması məqsədilə, seçki qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada araşdırma müddətinin uzadılması haqqında qərar qəbul etmişdir.

Araşdırma nəticəsində müraciətdə iddia edilən hallar öz təsdiqini tapmamışdır. Belə ki, 53 saylı Quba-Qusar seçki dairəsi dairə seçki komissiyasının sədri Rasim Qarayevin və digər komissiya üzvlərinin, 53 saylı Quba-Qusar seçki dairəsinin 1, 2, 3 və 57 saylı seçki məntəqələrinin məntəqə seçki komissiyaları üzvlərinin, bələdiyyə üzvlüyünə seçilməmiş namizədlər Rahim Seyidovun, Səyyab Ağaməmədovun, Könül Müslümovanın, həmçinin müvafiq seçki məntəqələrində müşahidəçi olmuş Rahim Əkbərovun, Anar Məmmədovun, Sakeh Hüseynovun, Kamran Həsənovun, Ərzuman Məhərrəmovun, Kamil Həsənovun, Taleh Sultanovun, Hikmət Mirzəyevin Taleh Salmanovun verdikləri izahatlardan Birinci Nüqədi bələdiyyəsinə seçkilərdə səsvermənin qanunvericiliyin tələblərinə uyğun surətdə keçirildiyi, səsvermə prosesinə müraciətdə göstərilən şəxslərin heç bir müdaxiləsinin olmadığı, seçki qutularının açılması və səslərin hesablanması zamanı qanun pozuntularına yol verilmədiyi, müvafiq seçki məntəqələri üzrə səsvermənin nəticələrinə dair yekun protokolunun dərhal tərtib edilərək ictimailəşdirildiyi təsdiq olunmuşdur. Birinci Nügədi bələdiyyəsinin sədri Sadiq Ayaməzovun və kənd icra nümayəndəsi Rasim Musayevin izahatlarında da onlar tərəfindən hər hansı qanun pozuntusu törədilməsi faktı inkar edilir. Eyni zamanda 53 saylı Quba-Qusar seçki dairəsi dairə seçki komissiyasının sədri və komissiya üzvlərinin izahatında müraciət edən şəxslərin adından Birinci Nügədi bələdiyyəsinə seçkilərlə bağlı müvafiq dairə seçki komissiyasına heç bir şikayət və müraciətin daxil olmadığı da göstərilmişdir.

Bu səbəbdən də müraciət əsassız hesab edilərək təmin edilməməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimatın" 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **q ə r a r a a l ı r :**

1. Vətəndaş Umaratov Qüdrət Hüseynqulu oğlunun və digərlərinin 26 dekabr 2009-cu il tarixli 131 saylı müraciəti əsassız olduğundan təmin edilməsin.

2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

Sədr	Məzahir Pənahov
Katib	Natiq Məmmədov
Üzvlər	Fuad Cavadov
	Ramiz İbrahimov
	Validə Kazımova
	Qabil Orucov
	Tofiq Həsənov
	İlham Məmmədov
	Nizami Nadirov
	Azər Tağıyev
	Tamam Cəfərova
	Rövşən İsmayılov
	Oktay Hümbətli